Bakı Şəhər Heyvanat parkının 90 illik yubileyi

Bu günlərdə Bakı Şəhər Heyvanat Parkının 90 illki yubileyi qeyd olunacaqdır. Bununla əlaqədar qəzetimizin əməkdaşı zooparkda olmuş, parkın direktoru, Əməkdar mədəniyyət işçisi Azər Hüseynovla görüşmüş və ondan parkın tarixi, fəaliyyəti və burada aparılan yenidənqurma işləri barədə məlumat verməsini xahiş etmişdir. Müsahibəni təqdim edirik.

– Azər müəllim, Bakı Şəhər Heyvanat Parkının yaranma tarixi haqda qısa məlumat verməyinizi xahiş edirəm.

– Bakı şəhərində Heyvanat parkının yaranması ötən əsrin 20-ci illərinə təsadüf edir. Belə ki, 1923-ci ildə Bakıda ilk özəl heyvanxana olub. 1927-ci ildə ittifaqın 8 şəhərində - Moskva, Xarkov, Rostov, Saratov, Pyatiqorsk, Həştərxan, Tiflis şəhərlərində özəl heyvanxana olmuşdur. Bakı şəhərində isə 14 dekabr 1928-ci il tarixdə keçmiş Lunaçarski, indiki Nobel parkının ərazisində yerləşən Bioloji stansiyanın bazasında Zooloji bağ yaradılmışdır. 02 yanvar 1942-ci ildə Zooloji guşə—Zooloji park adlandırılmışdır. Ötən müddət ərzində Zoopark bir neçə dəfə yerini dəyişmişdir. Belə ki, keçən əsrin 80-ci illərinə qədər Zoopark Bayıl qəsəbəsində fəaliyyət göstərirdi. Lakin oranın sürüşkən zona olması nəzərə alınaraq, müxtəlif yerlərə köçürülmüşdür. Nəticədə 1982-ci ildə Zooparkın hazırkı yeri seçilmiş və 45 hektar yer istifadə üçün nəzərdə tutulmuşdur. Buna baxmayaraq, qeyri-müəyyən səbəblər ucbatından 2.25 ha ərazi istifadəyə verilmişdir. 2001-ci ildə isə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən daha 2 ha torpaq artırılmış və hazırda zoopark 4.25 ha ərazini əhatə edir.

– Azər müəllim, Siz zooparka rəhbərlik etdikdən sonra hansı işlər görülmüşdür?

– 1995-ci ildən etibarən Bakı şəhər Heyvanat parkına mən rəhbərlik edirəm. Elə həmin ildən etibarən də Bakı Heyvanat parkı "Avrasiya Regional Zooparklar və Akvariumlar Assosiasiyası"nın üzvü olmuşdur. Hansı ki, bu quruma 18 ölkədən 70-dək zooloji park daxildir.

– Zooparkda hansı heyvanlar saxlanılır. Və bu heyvanlar necə döl keçirilir. Baytar həkim kimi deyə bilərsinizmi necə müalicə olunur?

– Hazırda Bakı Heyvanat parkında 151 növdə və 1240 başdan çox heyvan nümayiş etdirilir. 2018-ci ilin nəticələrinə əsasən deyə bilərəm ki, Pavian qamadril (1 bala), Uzunquyruq meymun (3 bala), Xallı maral (4 bala), dəvə (1 bala), poni (2 bala), Muntcaq (2 bala), Emu (1 bala), Kameron keçisi və Lan da daxil olmaqla hər birində nəsil artımına və həmçinin həmin balaların həyatda qalıb böyüməsinə nail olmuşuq. Bundan əlavə daxil olan müraciətlər əsasında da xeyli yaralı və xəstə heyvanların sağaldılması, reabilitasiyası və reintroduksiyasım həyata keçirmişik. Eyni zamanda bir çox hallarda istrahət mərkəzlərindəki vəhşi heyvanların təbiətə buraxılması mümkün olmadıqda zooparkda yerləşdirilməsinə şərait yaratmışıq.

– Bu il Bakı Şəhər Heyvanat Parkının 90 ili tamam olur. Bu barədə nə deyə bilərsiniz?

– Biz istərdik ki, yubileylə əlaqədar olaraq, Beynəlxalq konfrans keçirək və bu konfransa "Avrasiya Regoional Zooparklar və Akvariumlar Assosiasiyasının üzvlərini dəvət edək. Lakin hazırda Bakı şəhər Heyvanat parkında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə tam yenidənqurma və rekonstruksiya işləri aparılır. Bununla əlaqədar olaraq yubileyi geniş miqyasda keçirə bilmirik. Hesab edirəm ki, yenidənqurma işləri bitdikdən sonra Heyvanat parkı yeni formasını əldə edəcək və heyvanların şəraiti də təbiətdəki mühitlərinə və areallarına uyğun olacaq. Bu isə əlbəttə ki, parka təşrif buyuran həm şəhər sakinlərinin, həm də digər qonaqların daha çox zövqünü oxşayacaq.

Onu da qeyd etmək lazımdır ki, 14 dekabr - yubiley günü ilə əlaqədar "Açıq qapı" günü keçiriləcək, seyirçilər parka pulsuz daxil olacaqlar.

– Müsahibə üçün sağ olun.

Zabit CAVADOV,
"Respublika".

Respublika.- 2018.- 16 dekabr.- S.8.